**Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramının yerinə yetirilməsi ilə əlaqədar görülən işlər barədə**

# M Ə L U M A T

«Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramının (2004-2006-cı illər) təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 sentyabr tarixli 377 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları tərəfindən Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi ilə əlaqədar 2005-ci ilin mart-avqust aylarında aşağıdakı işlər görülmüşdür.

## 1. Qanunvericiliyin təkmilləşdirilməsi sahəsi üzrə

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən bir sıra normativ hüquqi aktların layihələri hazırlanmış, bir çox layihələrə baxılaraq onlar hüquqi ekspertizadan keçirilmiş, qanunvericiliyin sistemləşdirilməsi işi, hüquq normalarının qaydaya salınması, onların arasındakı ziddiyyətlərin aradan qaldırılması, köhnəlmiş normaların ləğvi və ya dəyişdirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi üzrə zəruri tədbirlərin görülməsi davam etdirilmişdir.

Normativ hüquqi aktların layihələrinin korrupsiyaya qarşı mübarizə ilə əlaqədar müvafiq ekspertizasının həyata keçirilməsi, qanun layihələrinin ictimai müzakirəyə təqdim edilməsi işinin təkmilləşdirilməsi məqsədi ilə «Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi haqqında» Qanun layihəsi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən hazırlanıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edilmişdir.

### Dövlət orqanlarının fəaliyyəti sahəsi üzrə

Dövlət orqanlarında islahatların başa çatdırılması məqsədi ilə dövlət orqanlarının səlahiyyətlərinin dəqiqləşdirilməsi və onların fəaliyyətində təkrarçılığın aradan qaldırılması istiqamətində aparılan məqsədyönlü işlər davam etdirilmişdir.

Azərbaycan Respublikasında sosial yardım sisteminin təkmilləşdirilməsi və sosial yardımın ünvanlılığının təmin olunması istiqamətində əsaslı islahatların həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən aparılmış struktur dəyişiklikləri nəticəsində sosial yardım və sosial sığorta sistemləri bir-birindən ayrılmış, dövlət büdcəsindən və sosial sığorta haqlarından maliyyələşən sistemlərin ayrılmasını təmin etmək məqsədi ilə təkliflər hazırlanır.

Mərkəzi icra hakimiyyətlərində onların fəaliyyətini əks etdirən internet səhifələri tərtib edilmiş, ərizə və şikayətlərin elektron vasitələrlə qəbul edilməsi işi təşkil edilmiş, korrupsiyaya qarşı mübarizə məqsədi ilə daxili nəzarət strukturu bölmələri fəaliyyətə başlamışdır. Dövlət qulluğuna qəbulun müsabiqə yolu ilə həyata keçirilməsi üçün müvafiq tədbirlər görülür, dövlət qulluqçularının korrupsiyaya qarşı mübarizə ilə bağlı maarifləndirilməsi üçün vaxtaşırı təlim və seminarlar keçirilir, dövlət qulluğunun nüfuzunun artırılması üçün həvəsləndirmə, mükafatlandırma və vəzifədə irəli çəkmə tədbirləri mütəmadi olaraq davam etdirilir.

Məlumat azadlığından istifadənin yaxşılaşdırılması, məlumat əldə edilməsi qaydalarının və üsullarının təkmilləşdirilməsi məqsədi ilə hazırlanmış «Məlumat azadlığı haqqında», «İnformasiya əldə etmək hüququ haqqında» Qanun layihələri hazırda Milli Məclisdə müzakirədədir.

Dövlət qulluğuna qəbulu tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi məqsədi ilə «Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya haqqında Əsasnamə» Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 247 nömrəli Fərmanı ilə təsdiq olunmuşdur.

Dövlət qulluqçularının fəaliyyətində maraqların ziddiyyətinin aradan qaldırılması məqsədi ilə qanunvericiliyin təkmilləşdirilməsi üçün «Dövlət qulluqçularının və digər vəzifəli şəxslərin fəaliyyətində maraqların toqquşmasının qarşısının alınması haqqında» Qanun layihəsi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən hazırlanıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edilmişdir.

Siyasi partiyaların maliyyələşdirilməsi və vəsaitlərin xərclənməsində şəffaflığın artırılması, bu məqsədlə nəzarət mexanizmlərinin müəyyən edilməsi, siyasi partiyaların maliyyə vəziyyəti barədə hesabatların tətbiq edilməsi sisteminin müəyyən edilməsi üçün «Siyasi partiyalar haqqında» Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə» Qanun layihəsi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən hazırlanıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edilmişdir.

### 2. Hüquq mühafizə orqanlarının və məhkəmələrin fəaliyyət sahəsi üzrə

Azərbaycan Respublikası baş prokurorunun müvafiq əmrləri ilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin

istintaq, analitik-informasiya və daxili təhqiqatlar şöbələrinin əsasnamələri təsdiq edilmişdir. İdarənin rəisi və əməkdaşları vəzifələrə təyin olunmuşlar. İdarənin daxili təhqiqatlar şöbəsinə prokurorluq orqanlarında daxili nəzarət funksiyasının həyata keçirilməsi həvalə edilmişdir.

Hüquq mühafizə orqanlarının müvafiq əməkdaşlarının korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşması üçün bu sahədə mövcud qanunvericiliyin, beynəlxalq sənədlərin və digər normativ sənədlərin öyrənilməsi prokurorluq orqanlarında mütəmadi olaraq keçirilən seminar məşğələlərin və Azərbaycan Respublikası Baş Prokurorluğunun Tədris Mərkəzinin tədris planlarına daxil edilmişdir.

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyində korrupsiyaya qarşı mübarizəni həyata keçirən struktur bölmə təsis edilmiş, həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində aşkarlanmış korrupsiya hüquqpozmalarına dair 3 məlumat əsasında Azərbaycan Respublikasının Prokurorluğunda cinayət işi başlanmışdır.

Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətlə bir araya sığmayan fəaliyyətlə məşğul olma və digər neqativ halların qarşısının alınması, korrupsiya hüquqpozmalarına yol verən əməkdaşların müəyyən olunub barələrində müvafiq tədbirlərin görülməsini təmin etmək məqsədi ilə Daxili Təhlükəsizlik İdarəsi peşəkar kadrlarla komplektləşdirilmiş, idarənin fəaliyyətini tənzimləyən normativ hüquqi bazanın yaradılması işi başa çatdırılmışdır.

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyində cinayət işlərinin istintaqı zamanı müəyyən edilən korrupsiya halları ilə bağlı aparılan araşdırmalar üzrə qəbul edilən qərarların ədalətli və qərəzsiz olmasına nəzarət daha da gücləndirilmiş, cinayət əməlinin bütün iştirakçılarının ifşa olunmasını təmin etmiş əməkdaşlar müəyyən edilmiş qaydada mükafatlandırılır.

Vətəndaşların daha çox müraciət etdikləri pasport-qeydiyyat, Dövlət Yol Polisinin imtahan-qeydiyyat, texniki baxış və s. sahələrdə iş prosesinin sürətləndirilməsi, habelə süründürməçilik, sui-istifadə hallarının qarşısının alınması üçün müvafiq tədbirlərin görülməsi, günahkar əməkdaşlar barəsində ciddi ölçülər götürülməsi nəzərdə tutulmuşdur.

Neft, qaz və su kəmərlərinin mühafizə zolaqlarında, yüksək gərginlikli elektrik xətlərinin altında qanunsuz tikililərin inşa edilməsi, habelə neft və neft məhsullarının talanmasının qarşısının alınması sahəsində daxili işlər orqanları əməkdaşları tərəfindən korrupsiya hallarına yol verilməsi faktlarının aşkarlanması üçün mütəmadi reydlər keçirilir və qabaqlayıcı tədbirlər görülür.

Narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri ilə məşğul olan mütəşəkkil dəstələr barədə məlumatların əldə edilməsi, onların aşkar və ifşa olunması üçün müvafiq əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi gücləndirilmişdir.

Hazırlanan və ya törədilmiş korrupsiya və mütəşəkkil cinayətlər haqqında məlumatlar əldə edildikdə, qanunvericiliklə müəyyən olunmuş qaydada təxirəsalınmaz tədbirlər görməklə bu haqda dərhal Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəhbərliyinin məlumatlandırılması, vaxtında əməliyyat-axtarış tədbirlərinin hazırlanıb keçirilməsi üçün məqsədyönlü tədbirlər nəzərdə tutulmuşdur.

Korrupsiya ilə mübarizənin həyata keçirilməsində dövlət orqanları ilə yanaşı Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman), qeyri-

hökumət təşkilatları, kütləvi informasiya vasitələri, beynəlxalq və regional qurumlarla əməkdaşlığın gücləndirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi üçün müvafiq əməkdaşların korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşması məqsədi ilə 2005-ci ilin fevralın 22-dən martın 17-dək Polis Akademiyasında ixtisasartırma kursları keçirilmişdir.

Azərbaycan Respublikası müdafiə nazirinin «Azərbaycan Respublikasının Silahlı Qüvvələrində şəxsi heyətin sosial-hüquqi müdafiəsinin gücləndirilməsi və neqativ halların, qanun pozuntularının qarşısının alınması məqsədi ilə müvafiq operativ tədbirlərin həyata keçirilməsi haqqında» əmrinə əsasən Azərbaycan Respublikasının Silahlı Qüvvələrində korrupsiyaya qarşı mübarizə üzrə daxili nəzarət komissiyası yaradılmış, hərbi qulluqçuların ərizə, şikayət və təkliflərini operativ çatdırmalarını təmin etmək üçün birləşmə, hərbi hissə və hərbi təhsil müəssisələrində xüsusi poçt qutuları yerləşdirilmiş, Azərbaycan Respublikasının Müdafiə Nazirliyində etimad telefon xətti açılmışdır. Hazırda Müdafiə Nazirliyinin internet saytı yaradılmaqdadır, bu iş başa çatan kimi ərizə və şikayətlərin elektron vasitələrlə qəbul edilməsi təşkil ediləcəkdir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrində korrupsiyaya qarşı mübarizənin səmərəli aparılması və qanunçuluğun möhkəmləndirilməsi üçün Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən Silahlı Qüvvələrin müxtəlif qurumlarında həm planlı, həm də operativ yoxlamalar keçirilir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi hissə, birlik və birləşmələrində, hərbi təhsil müəssisələrində hər həftə hüquqi maarifləndirmə saatı təşkil olunur və hüquqı təbliğat guşələri yaradılır, «Azərbaycan Ordusu» qəzetində və «Hərbi bilik» jurnalında hüquqi mövzularda yazılar dərc edilir, sorğulara cavab rubrikaları aparılır.

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları ilə Korrupsiyaya Qarşı Mübarizə üzrə Dövlət Proqramının məqsəd və mahiyyəti, həyata keçirilən tədbirlər, şəxsi heyətdə yüksək mənəvi və iş keyfiyyətlərinin, xidmət apararkən qanunlara ciddi riayət olunmasının formalaşdırılması barədə treninqlər keçirilmişdir. Əməkdaşların xidmətinin stimullaşdırılması məqsədi ilə onların sosial təminat məsələlərinin gücləndirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinın hərbi qulluqçularının milli təhlükəsizlik konsepsiyası, sərhəd mühafizəsi sisteminin təkmilləşdirilməsi, qaçaqmalçılıq, qeyri-leqal miqrasiya və korrupsiya ilə mübarizə məsələlərinə dair ABŞ-ın Milli Müdafiə Universiteti ilə keçirilən seminarlarda, GUAM Ticarət və Nəqliyyata yardım layihələrində, habelə digər müxtəlif beynəlxalq tədbirlərdə iştirakı təşkil olunmuşdur.

Azərbaycan Respublikasının ədliyyə orqanlarında işin təkmilləşdirilməsi və korrupsiya ilə mübarizə istiqamətində kompleks tədbirlər görülmüşdür. Penitensiar sistemdə aşkar edilmiş cinayət faktları ilə bağlı prokurorluq orqanları tərəfindən aparılan istintaq davam etdirilir, yol verilmiş qanun pozuntuları ilə əlaqədar Məhkəmə Qərarlarının İcrası Baş İdarəsinin və onun tabe qurumlarının fəaliyyətinin yoxlanılması məqsədi ilə xüsusi komissiya tərəfindən aparılmış araşdırmalar nəticəsində müvafiq əmrlərlə 130-dək əməkdaş, o cümlədən 50-dən çox rəhbər işçi tutduqları vəzifələrdən azad olunmuşlar. Yerli və xarici qeyri-hökumət təşkilatlarına, həmçinin hüquq müdafiəçilərinə cəzaların icrası yerlərində monitorinqlərin

aparılması üçün əlverişli şərait yaradılmışdır. 2005-ci il avqustun 3-də Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə birlikdə ATƏT-in Bakı ofisinin rəhbərliyinin, Beynəlxalq Qırmızı Xaç Komitəsinin təmsilçilərinin, İnsan Hüquqları üzrə Müvəkkilin, qeyri-hökumət təşkilatlarının nümayəndələrinin və hüquq müdafiəçilərinin iştirakı ilə «Məhkumların islah edilməsində ictimai təşkilatların iştirakı və cəzaların icrasına ictimai nəzarətin rolu» mövzusunda konfrans keçirilmişdir.

Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi və bu kimi halların ədliyyə orqanlarının fəaliyyətində qarşısının alınması məqsədi ilə nazirlik tərəfindən hüquqi şəxslərin dövlət qeydiyyatı işinin təkmilləşdirilməsi üzrə əlavə tədbirlər görülmüş, struktur dəyişiklikləri aparılmış, hüquqi şəxslərin dövlət qeydiyyatı prosedurunun daha da sadələşdirilməsi və müddətinin azaldılması məqsədi ilə müvafiq qanun layihəsi hazırlanmışdır.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi zamanı qanunvericiliyin tələblərinə riayət edilməsi, bələdiyyələrin fəaliyyətində korrupsiya və digər sui-istifadə hallarının aşkar edilməsi və qarşısının alınması üzrə tədbirlər davam etdirilmiş, bələdiyyələrin maliyyə pozuntuları nəticəsində vurulmuş ziyandan 65 milyon manat ödətdirilmiş, aşkar edilmiş ciddi qanun pozuntuları ilə bağlı 6 bələdiyyənin vəzifəli şəxsləri barədə materiallar cinayət işinin başlanılması üçün aidiyyəti orqanlara göndərilmişdir.

Məhkəmələrin fəaliyyətinin təkmilləşdirilməsinə dair tədbirlərin icrası istiqamətində kompleks tədbirlərin görülməsi davam etdirilmişdir. Ədalət mühakiməsinin səmərəliliyinin artırılması, hakimlərin müstəqilliyinin təmin olunması və onların seçilməsi prosedurunun təkmilləşdirilməsi üzrə bir sıra normativ hüquqi sənədlər, o cümlədən «Hakimlərin Seçki Komitəsi haqqında» Əsasnamə, «Vakant hakim vəzifələrinə hakim olmayan namizədlərin seçilməsi Qaydaları» hazırlanaraq Avropa Şurasında ekspertizadan keçirilmiş və Məhkəmə-Hüquq Şurasının qərarı ilə qəbul olunmuşdur.

Məhkəmə-Hüquq Şurası ötən dövrdə öz iclaslarında məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bir çox məsələlərə, o cümlədən məhkəmə monitorinqlərinin nəticələrinə baxmış, 20 hakim barəsində intizam icraatı başlamışdır.

Məhkəmə sisteminin islahatı çərçivəsində qanunvericiliyin daha da təkmilləşdirilməsi və Avropa standartlarına tam uyğunlaşdırılması prosesi davam etdirilir. qəbul edilmiş «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə» 2004-cü il 28 dekabr tarixli Azərbaycan Respublikasının Qanununa əsasən kassasiya və apellyasiya instansiyası məhkəmələrinin bütün qərarları qəbul olunduğu gündən bir aydan gec olmayaraq dərc edilməli və elektron daşıyıcılarda yayılmalı, həmçinin bu qərarlarla birlikdə aşağı instansiya məhkəmələrinin ləğv edilmiş və ya dəyişdirilmiş qərarları da dərc edilməlidir. «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» 2005-ci il 14 iyun tarixli Azərbaycan Respublikasının Qanununda «Məhkəmələr və hakimlər haqqında» və «Məhkəmə-Hüquq Şurası haqqında» Azərbaycan Respublikasının Qanunlarına edilən dəyişikliklərdə hakimlərin intizam icraatı prosedurunun təkmilləşdirilməsi, ümumi və ixtisaslaşdırılmış məhkəmələrin fəaliyyətinə Azərbaycan Respublikası Ali

Məhkəməsinin nəzarətinin ləğv edilməsi ilə bağlı mütərəqqi müddəalar nəzərdə tutulmuşdur.

Məhkəmə sistemində aparılan islahatların mahiyyətinin ictimaiyyətə çatdırılması üçün kütləvi informasiya vasitələrində, internet səhifələrində məlumatlar yayılır. Bu sahədə yeni qəbul olunmuş sənədlər ayrıca kitabça kimi nəşr edilərək bütün məhkəmələrə, ədliyyə və digər dövlət orqanlarına, Avropa Şurasına və digər beynəlxalq təşkilatlara göndərilmişdir.

«Müdafiəçilərə, tərcüməçilərə, mütəxəssislərə və ekspertlərə ödənilməli olan məbləğlərin miqdarı haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 fevral tarixli 31 nömrəli qərarına dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 29 iyun tarixli 123 nömrəli qərarı ilə dövlət hesabına ödənilən hüquqi yardımın məbləği artırılmışdır.

Notariat fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülən tədbirlər davam etdirilmiş, xüsusi notariat institutunun tətbiqi ilə əlaqədar qanunvericilikdə mövcud olan problemlərin aradan qaldırılması üçün 2005-ci il iyunun 28-də «Notariat haqqında» Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

## 4. İqtisadi və sosial sahə üzrə

Rəqabəti tənzimləmə fəaliyyətinin təkmilləşdirilməsi, inhisarlar sahəsində sui-istifadəyə şərait yaradan halların aşkar edilməsi və onların aradan qaldırılması məqsədi ilə əmtəə və maliyyə xidmətləri bazarlarında təmərküzləşmənin səviyyəsinin və rəqabətin vəziyyətinin daha dəqiq analizinin aparılması üçün Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi tərəfindən yeni metodik sənədlər hazırlanmış, inhisarlaşmış bazarlarda təmərküzləşmə səviyyəsinin aşağı salınmasına təsir edən antiinhisar siyasətinin formalaşması istiqamətində işlər aparılmışdır.

Ümumilikdə, istehlak mallarının istehsalını, idxalını, topdan və pərakəndə satışını həyata keçirən 186 təsərrüfat subyektində monitorinqlər aparılmış, qanun pozuntusuna yol vermiş təsərrüfat subyektlərinə 32.450.000 manat məbləğində maliyyə sanksiyası və ya inzibati cərimə tətbiq edilmiş, ümumi dəyəri 2.275.000 manat olan, 68 adda, 465 ədəd yararlılıq müddəti ötmüş ərzaq və digər qida məhsulları satışdan çıxarılmışdır. 81 təsərrüfat subyektinə xəbərdarlıq edilmişdir. Cəmi 12.070.000 manat cərimə dövlət büdcəsinə alınmışdır.

İnvestorların zəruri məlumatla təmin edilməsi işinin təkmilləşdirilməsi məqsədi ilə Azərbaycanda investisiya imkanlarını və xarici sərmayələrin cəlb edilməsi istiqamətində dövlətin həyata keçirdiyi strategiyanı əks etdirən məlumatlar, iqtisadiyyatın müxtəlif sahələrinə dair icmallar Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin internet səhifəsində yerləşdirilmiş, İnvestisiyaların Təşviqi və Məsləhət Fondu ilə birlikdə kitabça və broşürlər nəşr etdirilərək xarici investorlara paylanmışdır. Azərbaycanda mövcud investisiya imkanları barədə xarici investorları məlumatlandırmaq məqsədi ilə İtaliya, Çin, Almaniya, Küveyt və Rusiyada (Sankt-Peterburq ş.) müvafiq biznes forumlar keçirilmişdir.

Maliyyə nəzarətini tənzimləyən qanunvericiliyin, büdcə sisteminin qanunvericilik bazasının və büdcə təsnifatının təkmilləşdirilməsi, maliyyə nəzarəti prosedurlarının və bu prosedurları tənzimləyən normaların müəyyən edilməsi, maliyyə nəzarətini həyata keçirən orqanların fəaliyyətinin təkmilləşdirilməsi və səlahiyyətlərinin dəqiqləşdirilməsi, onların fəaliyyətində şəffaflığın təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 iyun tarixli 97 nömrəli qərarı ilə «Dövlət büdcəsindən maliyyələşən idarə və təşkilatların ştat cədvəllərinin maliyyə orqanlarında qeydiyyatdan keçirilməsi Qaydaları», 2005-ci il 9 iyun tarixli 102 nömrəli qərarı ilə «İri dövlət vergi ödəyicilərinin gəlirlər və xərclər smetalarının tərtibi Qaydaları» təsdiq edilmiş, «Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına əlavələr və dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 5 aprel tarixli 62 nömrəli qərarı ilə «Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən idarə və təşkilatların büdcədənkənar vəsaitləri haqqında Əsasnamə»yə, «Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları»na, 2005-ci il 21 iyun tarixli 112 nömrəli qərarı ilə «Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Baş Dövlət Xəzinədarlığı haqqında Əsasnamə»yə əlavə və dəyişikliklər edilmişdir.

Dövlət müəssisələrinin maliyyə-təsərrüfat fəaliyyətində şəffaflığın artırılması, korporativ idarəetmənin təmin edilməsi məqsədi ilə «Dövlət müəssisələri haqqında» Qanun layihəsi hazırlanıb razılaşdırılmaq üçün aidiyyəti dövlət orqanlarına göndərilmişdir.

Dövlət satınalmalarını tənzimləyən normativ hüquqi sənədlərə dair izahatlar vermək və satınalmaların təşkilində yaranan çətinlikləri aradan qaldırmaq məqsədi ilə Azərbaycan Respublikasının Satınalmalar üzrə Dövlət Agentliyi tərəfindən satınalmalara cəlb olunan mütəxəssislər üçün təlim-məşq kursları təşkil olunmuş, Sahibkarlar Konfederasiyası ilə birlikdə sahibkarlara «Azərbaycan Respublikasında malların (işlərin və xidmətlərin) dövlət satınalmaları» mövzusunda seminar keçirilmişdir. «İqtisadiyyat və həyat» jurnalında və digər mətbuat orqanlarında mütəmadi olaraq, dövlət satınalmalarının təşkili və keçirilməsində vacib olan məsələlər üzrə məruzələr çap olunur.

Azərbaycan Respublikasının Satınalmalar üzrə Dövlət Agentliyində dövlət satınalmalarının monitorinqi sistemi yaradılmış, Dövlət Agentliyinin internet səhifəsində Azərbaycan Respublikasında dövlət satınalmalarını tənzimləyən normativ hüquqi baza yerləşdirilmişdir. Azərbaycan Respublikasında keçirilən dövlət satınalmaları barədə ictimaiyyəti geniş məlumatlandırmaq məqsədi ilə dövlət təşkilatları tərəfindən 2004-cü ildə büdcə və digər dövlət vəsaitləri hesabına aparılan satınalmaların nəticələrinə dair illik hesabat 2005-ci il 1 fevral tarixində «Xalq qəzeti» və «Respublika» qəzetində dərc edilmiş, Satınalmalar üzrə Dövlət Agentliyinin xüsusi bülleteni vasitəsi ilə yayılmışdır.

Görülən tədbirlər nəticəsində 2005-ci ilin birinci yarımili ərzində müsabiqələrin sayı – 3057-dək artmış, satınalmaların ümumi məbləği - 2.093.992,9 mln. manat təşkil etmiş, dövlət vəsaitinə 173.314,4 mln. manat və ya 7,6 faiz qənaət olunmuşdur. Hal-hazırda Satınalmalar üzrə Dövlət Agentliyi Dünya Bankının tövsiyələri əsasında respublikada dövlət satınalmaları üzrə keçirilən müsabiqələrdə rəqabəti artırmaq və subyektiv halların qarşısını almaq məqsədi ilə elektron dövlət satınalmaları sisteminin hazırlanması istiqamətində işlər aparır.

**Dövlət zəmanətlərinin verilməsi prosesində şəffaflığın artırılması məqsədi ilə «Dövlət borcu haqqında» Qanun layihəsi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən hazırlanıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edilmişdir.**

**Bank sistemində islahatların sürətləndirilməsi, bank xidmətindən istifadə imkanlarının genişləndirilməsi, bu sahədə ədalətli rəqabətin və şəffaflığın təmin edilməsi istiqamətində Azərbaycan Respublikasının Milli Bankı tərəfindən məqsədyönlü işlər görülmüşdür.**

**Bank sisteminin kapitallaşmasının sürətləndirilməsi üçün Azərbaycan Respublikası Milli Bankının İdarə Heyətinin qərarı ilə 2006-cı il yanvarın 1-dən yeni açılan banklar üçün nizamnamə kapitalının minimal miqdarına tələb normativinin 50 mlrd. manatadək artırılması barədə qərar qəbul edilmişdir. Almaniyanın KFW bankının ötən ildən başlayan proqramı banklarda korporativ idarəetmə təcrübəsinin tətbiqinə imkan vermişdir. Layihəyə dəstək məqsədi ilə 2005-ci ildə Beynəlxalq Maliyyə Korporasiyasının texniki yardımı da cəlb olunmuşdur.**

**2005-ci ilin yanvarında Mərkəzləşdirilmiş Kredit Reyestri və «Milli Kart» Prossesinq Mərkəzi işə düşmüşdür. 2005-ci ilin iyununda «İpoteka haqqında» Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmiş, ipoteka krediti sisteminin yaradılması və inkişafı üzrə Dövlət Proqramı layihəsinin hazırlanması üzrə iş başa çatdırılmışdır.**

**Azərbaycan Respublikasının Milli Bankı nüfuzlu xarici bankların Azərbaycanın bank sistemində iştirakını təşviq edir. Beynəlxalq maliyyə təşkilatları tərəfindən də Azərbaycanın bank sisteminə maraq artmaqda davam edir. Almaniyanın KFW Qrupuna daxil olan DEG bankı - 16,7 % və Almaniya Əmanət Kassalarının Beynəlxalq İnkişaf Fondu - 8,3 % iştirak payı ilə «Respublika» SKB-nin kapitalına sərmayə qoymaq barədə bankla razılaşma əldə etmiş, DEG bankı «Unibank» Kommersiya Bankının səhmdar kapitalının 8,3 %-ni əldə etmək barədə bankla razılaşma imzalamış, Avropa Yenidənqurma və İnkişaf Bankının «Bank of Baku» Kommersiya Bankının kapitalının 25%-ni əldə etməsinə dair aparılmış qiymətləndirmə yekunlaşmışdır.**

**Bank nəzarəti sahəsində həyata keçirilən kompleks və ardıcıl tədbirlər nəticəsində bu gün Azərbaycan bank nəzarəti sisteminin beynəlxalq standartlara, Bazel Komitəsinin «Səmərəli bank nəzarətinin əsas prinsipləri»nə uyğunlaşdırılması əsasən tamamlanmışdır.**

**Azərbaycan Respublikasının Milli Bankı bank xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi üçün əlverişli şəraitin təşkili istiqamətində təşəbbüslərini davam etdirmişdir. Nəticədə hesabat dövründə bankların regional əhatə dairəsi daha da genişlənmiş və institusional strukturu isə təkmilləşmişdir. Bank statistikasının göstərdiyi kimi, bankların həm əməliyyatlarının sayı, həm də həcmi artmışdır. 2005-ci ilin yanvar - iyun aylarında 13 bankın 20 filialı açılmışdır ki, həmin filiallardan da 7-si kənd rayonlarının payına düşür. Cari ilin əvvəli ilə müqayisədə bankların müştərilərə kreditləri 14.8 % və ya 670 mlrd. manat artmış və 2005-ci il iyulun 1-nə 5193.5 mlrd. manat təşkil edir. Bank sisteminə inamın möhkəmlənməsi nəticəsində hesabat dövründə əhalinin əmanətləri 136.9 mlrd. manat və ya 6.8% artmış və 2005-ci il 1 iyul tarixinə 2152.5 mlrd. manat təşkil etmişdir.**

Nağdsız ödənişlərin sayı və həcmi artmışdır. Belə ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə ödəniş sistemlərində banklararası ödənişlərin sayı 421 mindən 487 minədək, ödənişlərin həcmi isə 23574 mlrd. manatdan, 33010 mlrd.manatadək artmışdır. Nağdsız ödənişlərdən istifadə vasitəsi kimi plastik kartlardan istifadə də genişlənir. 2005-ci il 1 iyul tarixə banklar tərəfindən 764.6 min plastik kart dövriyyəyə buraxılmışdır. Bu isə cari ilin əvvəli ilə müqayisədə 36% çoxdur.

Cari ilin yanvar - iyun aylarında ölkənin müxtəlif ərazilərində 433 ədəd yeni bankomat quraşdırılmış və hazırda bankomatların sayı 867-yə çatdırılmışdır. Bu da cari ilin əvvəli ilə müqayisədə 2 dəfə çoxdur. Eyni zamanda, hesabat dövründə banklar tərəfindən əlavə olaraq 264 ədəd POS-terminal quraşdırılmışdır.

Bank işi sahəsində ədalətli rəqabətin və şəffaflığın təmin edilməsi üçün əlavə tədbirlər həyata keçirilmişdir. Özəl bankların etibarlılığının və davamlılığının möhkəmləndirilməsi, potensial imkanlarının genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər bank xidmətləri bazarında rəqabətin təmin edilməsində mühüm rol oynamışdır. Bunun nəticəsidir ki, cari ilin əvvəli ilə müqayisədə 2005-ci il 1 iyul tarixinə dövlət banklarının əmanət bazarında payı 52.4%-dən 48.4%-ə, kredit qoyuluşlarında payı 50.1%-dən 47.3%-ə, o cümlədən Beynəlxalq Bankın əmanət bazarında xüsusi çəkisi 49.2%-dən 44.7%-ə, kredit qoyuluşlarında xüsusi çəkisi isə 43.9%-dən 42.8%-ə enmişdir.

«Azərbaycan Respublikasında maliyyə-bank sistemində islahatların dərinləşdirilməsi ilə əlaqədar əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 205 nömrəli Fərmanında dövlət banklarının özəlləşdirilməsi üzrə əlavə tədbirlər və meyarlar müəyyən olunmuşdur.

«Qeyri-qanuni yolla əldə olunmuş pulların və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Qanun layihəsinin hazırlanmasında ABŞ Hökumətinin və BMT-nin Narkotiklər və Cinayət Ofisinin texniki yardımından istifadə olunaraq, layihəyə müsbət rəy alınmış və hazırda qanun layihəsi aidiyyəti dövlət orqanları ilə razılaşdırılır.

Mənbəyi məlum olmayan və ya qanunsuz yollarla əldə edilmiş vəsaitlərin istifadəsinin qarşısının alınması məqsədi ilə maliyyə vasitəçiləri tərəfindən müştərilərin və benefisiarların, onların əməliyyatlarının identifikasiyası mexanizmlərini təmin edən Azərbaycan Respublikası Milli Bankının «Azərbaycan Respublikasında nağdsız hesablaşmalar və pul köçürmələri haqqında Təlimat»ı və «Bank hesablarının açılması, aparılması və bağlanması Qaydaları» qüvvədədir. «Müştərini tanı» prinsipini əks etdirən «Volsberq prinsipləri» bankların istifadəsinə təqdim olunub və daxili nəzarət sistemində onların tətbiqi üçün müvafiq prosedurların həyata keçirilməsi tövsiyə olunmuşdur.

Təsərrüfat subyektləri və iqtisadi agentlər arasında maliyyə əməliyyatlarının və hesablaşmaların şəffaflığının təmin edilməsi məqsədi ilə mülki dövriyyənin iştirakçıları arasında hesablaşmalarda nağdsız ödəmələrin həcminin artırılması üçün tədbirlər həyata keçirilir. Regionlarda ödəniş sistemləri və maliyyə xidmətləri infrastrukturunun genişləndirilməsi, pensiya, təqaüd və digər sosial müavinətlərin paylanmasının müasir ödəniş mexanizmləri vasitəsilə həyata keçirilməsi, kommunal

xidmətləri ilə bağlı ödənişlərin yığımında mövcud olan problemlərin aradan qaldırılması üçün Azərbaycan Respublikasının Milli Bankı Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə birlikdə xüsusi layihənin həyata keçirilməsi üzrə müvafiq işlər aparır. Layihənin həyata keçirilməsi üçün maliyyə və texniki dəstəyin göstərilməsi məqsədi ilə 2005-ci il 14 may tarixində 10 mln. ABŞ dolları həcmində kredit ayrılması barədə Azərbaycan Respublikasının Hökuməti ilə Dünya Bankı arasında müvafiq kredit sazişi imzalanmışdır.

Ölkə iqtisadiyyatının vacib hissəsi olan qiymətli kağızlar bazarında korrupsiya hallarının qarşısının alınması, şəffaflığın və ədalətli rəqabətin təmin edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədrinin əmrilə «Qiymətli kağızlar bazarında xidməti məlumatın saxlanması, istifadəsi və təqdim edilməsi Qaydaları», «Qiymətli kağızlar bazarında qiymətlərlə manipulyasiyaların qarşısının alınması Qaydaları», «İnvestisiya qiymətli kağızların emitentlərinin illik hesabatlarının hazırlanması və açıqlanması Qaydaları» təsdiq edilmişdir.

Audit xidmətinin qanunvericilik bazasının təkmilləşdirilməsi və beynəlxalq audit standartlarına uyğunlaşdırılması, milli audit standartlarının hazırlanmasının başa çatdırılması üçün Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən hazırlanmış «Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanununa əlavə və dəyişikliklərin edilməsi barədə», «Auditor xidməti ilə məşğul olan fiziki və hüquqi şəxslərin peşə məsuliyyətinin icbari sığortası haqqında» Azərbaycan Respublikasının Qanun layihələri aidiyyəti orqanlarla müzakirə edilir.

«Auditorların Peşə Etikası Məcəlləsi»nin korrupsiyaya qarşı mübarizə ilə bağlı təkmilləşdirilməsi məqsədi ilə Auditorlar Palatası Şurasının qərarı ilə Məcəlləyə müvafiq dəyişiklik və əlavələr edilmişdir.

Ölkədə auditor xidmətinin təşkilini tənzimləmək, keyfiyyətini yüksəltmək və korrupsiyaya zəmin yaradan haqsız rəqabət hallarını aradan qaldırmaq məqsədi ilə sahəvi auditlərin aparılmasına dair 7 proqram toplu şəklində nəşr etdirilmiş, auditorlara, təsərrüfat subyektlərinin rəhbərlərinə və digər maraqlı tərəflərə paylanmışdır. Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən daxili nəzarətin keyfiyyət göstəricilərinə müsbət təsir göstərəcək «Daxili audit xidmətləri rəhbərlərinin qulluğa qəbulu və qulluğuna xitam verilməsi prosedurlarının təkmilləşdirilməsi üzrə Əsasnamə», «Korrupsiyaya qarşı mübarizədə peşəkarlıq göstərən auditorların mükafatlandırılması və hüquqlarının qorunması üzrə Əsasnamə» təsdiq olunmuşdur.

Auditor təşkilatlarının korrupsiyaya qarşı mübarizə aparan orqanlarla əməkdaşlığının təkmilləşdirilməsi, korrupsiyaya qarşı mübarizə sahəsində öhdəliklərin müəyyən edilməsi ilə bağlı Azərbaycan Respublikasının Auditorlar Palatasında Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin, Daxili İşlər Nazirliyinin, İqtisadi İnkişaf Nazirliyinin, Vergilər Nazirliyinin, Ali Məhkəmənin, Baş Prokurorluğun və Dövlət Gömrük Komitəsinin nümayəndələrinin iştirakı ilə dəyirmi masa, daxili audit qurumlarının təşkili və təkmilləşdirilməsinə köməklik göstərmək məqsədi ilə Dövlət Neft Şirkətinin, Vergilər

Nazirliyinin və bank sektorunun nümayəndələrinin iştirakı ilə «Müəssisə və təşkilatlarda daxili auditin yaradılması və idarə edilməsi» mövzusunda seminarlar keçirilmişdir.

Vergi qanunvericiliyinin, həmçinin vergi nəzarətinin və vergi ödəmə prosedurlarının təkmilləşdirilməsi, vergidən yayınma hallarına qarşı mübarizənin gücləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən aparılan işlər davam etdirilmişdir.

Daxili nəzarətin təkmilləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikası vergilər nazirinin müvafiq əmri ilə «Vergilər Nazirliyinin mərkəzi aparatında və digər struktur bölmələrində daxili nəzarət sisteminin təşkili Qaydaları» təsdiq edilmişdir.

Korrupsiya ilə əlaqədar hüquqpozmalar haqqında məlumat verən şəxslərin hüquqlarının müdafiəsi məqsədi ilə daxil olmuş məlumatların operativ araşdırılması, müvafiq tədbirlərin görülməsi və nəticəsi barədə vətəndaşa məlumat verilməsi təmin edilmişdir. Aparılmış yoxlamalar zamanı müəyyən edilmiş nöqsanların aradan qaldırılması məqsədi ilə təqsirkar hesab edilmiş 27 nəfər vəzifəli şəxsin vergi orqanlarında xidmətinə xitam verilmiş, 1 nəfər aşağı vəzifəyə keçirilmiş, 5 nəfərin xüsusi rütbəsi bir pillə aşağı salınmış, 223 nəfər barəsində digər intizam tənbehi tədbirləri görülmüşdür.

Vergi orqanları əməkdaşlarının korrupsiyaya qarşı mübarizə sahəsində peşəkarlıq səviyyəsinin artırılması üçün Vergilər Nazirliyinin Tədris Mərkəzində ixtisasartırma kursları təşkil olunmuşdur.

2005-ci ilin yanvar-iyun ayları ərzində korrupsiya ilə mübarizə məsələlərinin ictimaiyyətə çatdırılması ilə bağlı mərkəzi qəzetlərdə, o cümlədən «Vergilər» qəzetində 70-dən çox material dərc olunmuşdur. Nazirliyin rəhbər vəzifəli şəxslərinin müxtəlif televiziya kanallarında canlı yayımlar vasitəsilə çıxışları, vergi orqanlarında korrupsiya ilə mübarizə məsələləri Az.TV1-də efirə verilən «Vergi xəbərləri» proqramında işıqlandırılmışdır. Bundan başqa, dövlət vergi orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi məqsədi ilə internet vasitəsilə korrupsiya ilə bağlı hüquqpozmalara yol vermiş vergi orqanlarının vəzifəli şəxsləri barəsində görülən tədbirlərin ictimaiyyətə çatdırılması təmin edilmişdir.

Dövlət Proqramına müvafiq olaraq Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən gömrük işini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilmişdir. «Gömrük prosedurlarının sadələşdirilməsi və harmonizə edilməsi haqqında» Beynəlxalq Konvensiyaya (Kioto Konvensiyası) uyğunlaşdırılması məqsədi ilə hazırda Azərbaycan Respublikası Gömrük Məcəlləsinin yeni variantı hazırlanır.

Gömrük sərhədindən keçirilən mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi zamanı iş adamlarının hüquqlarının qorunması, gömrük işində şəffaflığın təmin olunması, gömrük nəzarətinin operativ təşkili, sənədləşmə işinin sadələşdirilməsi məqsədi ilə qüvvədə olan bir sıra normativ hüquqi sənədlər beynəlxalq normalara uyğunlaşdırılmış, onlara əlavələr və dəyişikliklər edilmişdir.

«Malların Təsviri və Kodlaşdırılması üzrə Harmonikləşdirilmiş Sistem haqqında» Beynəlxalq Konvensiyaya və göstərilən Konvensiyaya Düzəliş Protokoluna qoşulmaq barədə» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 31 yanvar tarixli 11 nömrəli qərarı ilə Azərbaycan Respublikasının ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan malların siyahısı yeni sistemə uyğunlaşdırılmışdır.

İdxal-ixrac əməliyyatları zamanı iş adamları ilə münasibətdə qarşıya çıxan problemlərin həlli üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsində Koordinasiya Şurası yaradılmışdır.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin orqanı olan «Gömrükçü» jurnalında, «Gömrük xəbərləri» qəzetində və Az. TV1-də yayımlanan «Gömrük bülleteni» rubrikasında gömrük işini tənzimləyən normativ bazada, gömrük tarifləri haqqında məlumatlar mütəmadi şəkildə işıqlandırılır.

Korrupsiyaya qarşı mübarizə sahəsində digər dövlət orqanları ilə əməkdaşlığın genişləndirilməsi işi davam etdirilmiş, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi «GUAM Ticarətə və Nəqliyyata Yardım Layihəsinin həyata keçirilməsi üzrə Milli Çərçivə Planı»nın layihəsi çərçivəsində korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə birgə bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Dövlət Proqramında nəzərdə tutulmuş səhiyyə sistemində islahatların aparılması davam etdirilmişdir. Akademik M.Topçubaşov adına ET Kliniki Təbabət İnstitutunda yeni hemodializ mərkəzi açılmışdır. 2005-ci ilin iyununda Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Şəkərli Diabet üzrə Dövlət Proqramı təsdiq olunmuş, bu xəstəlikdən əziyyət çəkənlərin dərman təminatı üçün 45,5 milyard manat vəsait ayrılması nəzərdə tutulmuşdur.

Ümumdünya Səhiyyə Təşkilatının vərəmlə mübarizə üzrə yeni strategiyasının tətbiqinə dair metodik rəhbərlik işlənib hazırlanaraq həkim-ftiziatrların istifadəsinə verilmişdir. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təqdim olunmuş «Azərbaycanda İİV/QİÇS-lə mübarizənin gücləndirilməsi» adlı 5 illik proqramın birinci iki ilinin maliyyələşdirilməsi barədə Qlobal Fond qərar qəbul etmiş və bu məqsədlə 6.098.600 ABŞ dolları həcmində vəsait ayırmışdır.

Reproduktiv Sağlamlıq və Ailə Planlaşdırılması Proqramının fəaliyyəti nəticəsində respublikamızda Reproduktiv Sağlamlıq və Ailə Planlaşdırılması mərkəzlərinin sayı 30-a çatdırılmış, onlar əsaslı təmir olunaraq müasir avadanlıqla təchiz edilmişdir.

Qızılca və məxmərəyə qarşı Milli İmmunlaşdırma Kampaniyasının keçirilməsi haqqında YUNİSEF, Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin Uşaq Fondunun Azərbaycandakı nümayəndəliyi və Vişnevskaya-Rostropoviç Fondu aralarında Memorandum imzalanmış və bununla bağlı 2006-cı ilin mart ayında keçirilməsi nəzərdə tutulan bu kampaniya ərzində təxminən 3 milyon şəxsə peyvənd ediləcək.

Sanitariya-epidemioloji xidmət tərəfindən xəbərdaredici dövlət sanitariya nəzarətinin gücləndirilməsi istiqamətində müəyyən işlər görülərək, tikinti zamanı yol verilən nöqsanlara görə 133 obyektin tikintisi dayandırılmışdır.

Təhsil Nazirliyi tərəfindən bir sıra ali təhsil müəssisələrinin rəhbərlərinə imtahanların təşkili və keçirilməsi zamanı neqativ halların olması ilə əlaqədar xəbərdarlıq edilmiş, həmçinin qısa müddət ərzində şikayət və ərizələrə obyektiv baxılaraq problemlərin həll edilməsi ilə əlaqədar tapşırıqlar verilmişdir.

Son dövrdə YUNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü və təşkilatçılığı ilə xüsusi qayğıya ehtiyacı olan, kimsəsiz, valideyn himayəsindən məhrum uşaqların təhsil aldığı 23 müəssisə əsaslı şəkildə təmir edilmiş, müasir avadanlıqla təchiz olunmuş, rayonlarda qəza vəziyyətində olan 132 məktəb üçün yeni tədris binalarının tikilməsi üçün xüsusi proqram hazırlanmışdır.

Hal-hazırda pedaqoji kadr hazırlayan dövlət ali və orta ixtisas təhsili müəssisələrində kəskin kadr tələbatı olan məktəblərə göndəriş prosesi başa çatmış, 3000 nəfərdən artıq məzun birbaşa rayon təhsil şöbələrinin sərəncamına təyinat almışdır.

Təhsil Nazirliyinin əməkdaşları müxtəlif televiziya kanallarında və radio dalğalarında müsahibələr vermiş, diskussiyalarda iştirak etmiş, mətbuat orqanlarında çıxışlar etmişlər ki, bu da təhsil sahəsində aparılan işlərin ictimaiyyətə çatdırılması və şəffaflıq istiqamətində mühüm vasitəyə çevrilmişdir. Bu məqsədlə Nazirliyin internet saytı və elektron ünvanının imkanlarından da səmərəli istifadə olunur.

Bütün ali və orta-ixtisas müəssisələrində dərsliklərə korrupsiya ilə bağlı mövzular daxil edilmiş, tədris planlarında müvafiq dəyişiklik edilərək «Azərbaycan Respublikası Konstitusiyası və hüquqi biliklərin əsasları» adlı fənnin tədrisinə başlanılmışdır. 2005-ci ilin martından ixtisasartırma və yenidənhazırlanma təhsili müəssisələrində korrupsiyaya qarşı mübarizə üzrə kurslar təşkil edilmişdir.

Nəqliyyat sektorunda dövlət tənzimləmə və idarəetmə funksiyalarının kommersiya funksiyalarından ayrılması, infrastruktur xidmətləri göstərən dövlət müəssisə və təşkilatların azad rəqabət prinsipləri əsasında fəaliyyət göstərən müstəqil təsərrüfat sübyektlərinə çevrilməsi, bu sahədə şəffaflığın təmin olunması, sərnişinlərin və daşıyıcıların mənafelərini təmin edən məqsədyönlü tarif siyasətinin həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi tərəfindən «Avtomobil nəqliyyatı haqqında», «Dəmir yolu nəqliyyatı haqqında», «Nəqliyyat-ekspeditor fəaliyyəti haqqında» qanunların layihələri hazırlanıb və aidiyyəti orqanlarla müzakirədədir.

Beynəlxalq humanitar, maliyyə və texniki yardımların, habelə qrantların alınması və bölüşdürülməsi sahəsində şəffaflığın artırılması istiqamətində Avropa Şurası Yeni Qonşuluq Siyasəti daxilində Azərbaycan Respublikası üçün maliyyə və texniki yardımların, qrantların daha şəffaf şəkildə ayrılması və bölüşdürülməsi prosedurunu təmin edəcək Fəaliyyət Planının işlənməsinə dair 2005-ci ilin 25 aprel tarixində müsbət qərar vermişdir.

Dövlət büdcəsindən məcburi köçkünlər ücün ayrılan vəsaitin istifadəsini tam ünvanlı etmək, bu sahədə mövcud uçot sistemini təkmilləşdirmək və vəsaitin məcburi köçkünlərə çatdırılması mexanizmində şəffaflığı təmin etmək məqsədi ilə müavinətlərin bankomatlar və POS-terminallar vasitəsilə ödənilməsi üzrə iş aparılır.

Кommunal sahədə islahatların sürətləndirilməsi, kommunal xidmətlərin haqqının ödənilməsi mexanizminin təkmilləşdirilməsi sahəsində işlər davam etdirilmişdir. «Azərsu» Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Кabinetinin 2005-ci il 22 mart tarixli 50 nömrəli qərarına əsasən Sumqayıt, Gəncə, Şəki, Göyçay və Ağdaş şəhər və rayonlarının su kanalizasiya müəssisələri Törəmə Səhmdar Cəmiyyətlərinə çevrilmiş, regionlarda su təchizatı və kanalizasiya xidməti sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədi ilə «Birləşmiş Sukanal» Məhdud

Məsuliyyətli Cəmiyyət yaradılmış, eyni inzibati rayonda paralel fəaliyyət göstərən su kanalizasiya müəssisələri birləşdirilərək daha iri mobil təşkilatlara çevrilmiş, digər struktur təkmilləşdirmələri aparılmışdır.

«Azəriqaz» QSC tərəfindən müvafiq tədbirlər həyata keçirilmiş, təbii qazın alqı-satqısına dair təbii qaz istifadəçiləri ilə müqavilələr bağlanmış, bütün rayon qaz istismar idarələrində kompüter sistemi yaradılmış, sərf olunan təbii qazın uçotunun düzgün aparılması üçün abonentlər sayğacla təmin edilmiş, büdcədən maliyyələşən təşkilatlar üçün təbii qazdan istifadə ilə bağlı limitlərin müəyyənləşdirilmiş, istifadə edilmiş qazın haqqının ödənilməsindən yayınma hallarına qarşı sərt inzibati tədbirlər görülmüşdür.

Qaz təsərrüfatındakı bir sıra vəzifəli şəxslər tərəfindən qazın uçotunda və paylanmasında yol verilmiş qanun pozuntuları ilə bağlı «Azəriqaz» QSC-yə Azərbaycan Respublikası Baş Prokurorluğundan daxil olmuş təqdimatla əlaqədar «Azəriqaz» QSC-nin mütəxəssisləri tərəfindən bir sıra qaz istismar idarələrində araşdırmalar aparılmış, əmək kollektivləri ilə görüşlər keçirilmiş və təqdimatda qeyd olunan nöqsanlar müzakirə edilərək aidiyyəti işçilərə qarşı cəza tədbirləri görülmüşdür.

## 5. Korrupsiyaya qarşı mübarizə sahəsində maarifləndirmə və əməkdaşlıq üzrə

Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramının məqsəd və mahiyyətinin, icrasına yönəlmiş tədbirlər barədə məlumatların ictimaiyyətə çatdırılması üçün mərkəzi və yerli icra hakimiyyəti orqanlarında seminarların, treninqlərin, dəyirmi masaların keçirilməsi davam etdirilmişdir.

Azərbaycan Respublikasının Baş Prokurorluğunda «Qaynar xətt» əlaqə mərkəzi yaradılmış, «Prokurorluq orqanlarının kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları ilə əməkdaşlığı haqqında» əmrlə Azərbaycan Respublikası Hərbi prokurorluğunun mətbuat xidməti, Naxçıvan Muxtar Respublikası və Bakı şəhər prokurorlarının ictimaiyyətlə əlaqələr üzrə köməkçiləri ştat vahidləri təsis edilmiş, rayon (şəhər) və ya ərazi hərbi prokurorluqlarında isə məsul əməkdaş müəyyən edilmişdır.

Prokurorluq orqanlarının fəaliyyətində aktual məsələlərin ictimaiyyətin nəzərinə çatdırılması məqsədi ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun Tədris Mərkəzində informasiya agentlikləri və media əməkdaşları ilə birgə 2005-ci il 20 may tarixində görüş keçirilmişdir. 2005-ci il 28 iyunda Mətbuat Şurası ilə birlikdə Beynəlxalq Mətbuat Mərkəzində informasiya agentliklərinin rəhbərləri və media əməkdaşlarının iştirakı ilə keçirilmiş «Jurnalistlər üçün hüquqi terminlər lüğəti» kitabının təqdimat mərasimində jurnalistlərə 1000 ədəd kitab paylanmışdır. 2005-ci il 18 fevralda Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Gənc Hüquqşünaslar Birliyi və ATƏT-in Bakı ofisinin birgə təşkil etdiyi «Korrupsiyaya qarşı mübarizə aparan dövlət orqanları» mövzusunda dəyirmi masada da bu məsələlər geniş müzakirə edilmişdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun əməkdaşları bir sıra beynəlxalq tədbirlərdə, o cümlədən 2005-ci ilin 29-31 may tarixlərində Budapeşt şəhərində Avropa Baş prokurorlarının «Prokurorlar və polis arasında münasibətlər» mövzusunda keçirilən konfransın VI sessiyasında, 2005-ci ilin may ayının 23-31-də

Vyana şəhərində BMT-nin Cinayətkarlığın qarşısının alınması və cinayət ədliyyəsi komissiyasının XIV sessiyasında iştirak etmişlər.

Daxili işlər orqanlarının korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyətinin, o cümlədən korrupsiya hüquqpozmalarının profilaktikası və açılması sahəsində müsbət təcrübənin şəxsi heyət arasında yayılması, eləcə də cəmiyyətdə geniş tətbiq olunması məqsədi ilə televiziya kanallarında və mətbuat səhifələrində daimi rubrikalar təşkil edilməsi istiqamətində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Mətbuat Xidməti tərəfindən müvafiq işlər görülür.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər barədə ictimaiyyətin ətraflı məlumatlandırılması məqsədi ilə kütləvi informasiya vasitələrində çoxsaylı çıxışlar edilmiş, Nazirliyin mətbu nəşrlərində və internet səhifələrində müvafiq məlumatlar yayılmış, Nazirliyin Hüquq Tədris və Təlim-Tədris Mərkəzlərinin ixtisasartırma kurslarının proqramlarına, Elmi-Tədqiqat Məhkəmə Ekspertizası, Kriminalistika və Kriminologiya Problemləri İnstitutunun elmi-tədqiqat işlərinin planına korrupsiya ilə mübarizə sahəsində mövzular daxil edilmişdir.

Əhaliyə göstərilən hüquqi yardımın yaxşılaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən Bərdə, Füzuli, İmişli, Qusar, Qax, Lerik, Xanlar rayonlarında, Naftalan şəhərində və Naxçıvan Muxtar Respublikasında regional hüquqi məsləhət xidmətləri mərkəzləri yaradılmışdır.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Gənclər, İdman və Turizm Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Elm-Tədris Mərkəzlərinin 2005-ci il dövrü üçün tərtib olunmuş tədris planına korrupsiyaya qarşı mübarizə ilə bağlı mövzular daxil edilmişdir.

Mədəniyyət müəssisələri öz işlərini yerlərdə hüquq-mühafizə orqanları, gənclər, idman və turizm idarəsi, təhsil şöbələri ilə birgə qurmuş, xüsusi tədbirlər həyata keçirmişlər.

Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən «Antikorrupsiya» sənədlər toplusu, «Korrupsiya-Ümumbəşəri Sosial Bəla» başlıqlı yaddaş-buklet nəşr etdirilərək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, ali məktəblərə, mərkəzi kitabxanalara, qeyri-hökumət təşkilatlarına, Bakıdakı bir sıra diplomatik missiyalara, KİV redaksiyalarına, həmçinin xidməti istifadə üçün auditor təşkilatlarına paylanmışdır.

Azərbaycan Respublikasının Avropa Şurasının Korrupsiyaya Qarşı Dövlətlər Qrupu (GRECO) ilə əməkdaşlığı davam etmiş, respublikanın nümayəndə heyəti mütəmadi olaraq GREKO-nun plenar iclaslarında (2005-ci ilin mart ayının 14-dən 19-dək və iyun ayının 27-dən iyul ayının 2-dək Strasburq şəhərində) iştirak etmişdir. Təşkilatın dəyərləndirmə komissiyasının 2005-ci ilin sonunda Azərbaycan Respublikasına gələcəyi barədə razılıq əldə olunmuşdur.

Respublikanın nümayəndə heyəti həmçinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının İstanbul Anti-Korrupsiya Fəaliyyət Planı çərçivəsində 2005-ci il fevral ayının 21-dən 23-nə kimi Kiyev şəhərində «Korrupsiyaya qarşı beynəlxalq standartlar» mövzusunda keçirilən seminarda, 2005-ci ilin mayın 30-31-də Altıncı Ümumi İclasında iştirak etmişdir.

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi istiqamətində aparılan məqsədyönlü işlər davam etdirilir.